

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 217 (21.369)

*5 noyabr 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqatala rayonuna səfərə gedib.

Dövlətimizin başçısı Zaqatala şəhərindəki Heydər Əliyev Parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyevə parkda aparılan abadlıq işləri barədə məlumat verilib. İndi bu park Zaqatala sakinlərinin, rayona gələn qonaqların ən sevimli istirahət məkanına çevrilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolunun, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş “Qızılgül” körpələr evi-uşaq bağçasının, Zaqatala şəhərində Heydər Əliyev Mərkəzinin, Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının yeni inşa olunan binasının açılışlarında iştirak edib, Yevlax-Balakən magistral yolunun Yuxarı və Aşağı Tala kəndlərinin, həmçinin Zaqatala şəhərinin ərazisindən keçən hissəsinin genişləndirilməsi və abadlaşdırılması işləri ilə tanış olub.

Noyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqatala rayonuna səfərini başa çatdıraraq Şəkiyə gedib.



# Naxçıvanda xalq yaradıcılığı sərgisi keçirilir



Noyabrın 4-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində xalq yaradıcılığı sərgisinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xalq yaradıcılığı sərgisinin açılışında iştirak etmişdir.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: Naxçıvan şəhərində xalq yaradıcılığı sərgisinin keçirilməsində məqsəd milli dəyərlərimizi yaşatmaq və təbliğ etməkdir. Milli dəyərləri yaşatmaq xalqın tarixini yaşatmaq deməkdir. Əgər hər bir xalq öz kimliyini ortaya qoymaq istəyirsə, ilk növbədə, milli dəyərlərinə istinad etməlidir. Bu zərurəti əsas götürən ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan xalqının milli dəyərlərinin və tarixi yaddaşının bərpası istiqamətində mühüm qərarlar qəbul etmişdir. Bu dövrdə Azərbaycanın bölgələrində yeni tarix-diyarşünaslıq muzeyləri tikilmiş, xalq sənətinin inkişafına və mövcud nümunələrin mühafizəsinə diqqət artırılmışdı. Azərbaycan Konstitusiyasında ən ali milli dəyərlərimiz olan ana dilimiz dövlət dili kimi təsbit olunmuş, xalqın ruhunu, tarixini, milli dəyərlərini təbliğ və tərənnüm edən çoxsaylı əsərlər yaradılmışdı. Həmin dövrdə Azərbaycan xalqının qəhrəmanlıq eposu olan “Dədə Qorqud”, xalqımızın müstəqillik uğrunda mübarizə tarixini və qəhrəmanlıq ənənələrini təbliğ edən “Babək”, azərbaycanlılara xas olan Novruz ənənələrini ilk dəfə ekranlara çıxaran “Dəli Kür” kimi bədii filmlər çəkilmişdi.





Ali Məclisin Sədri demişdir: Azərbaycanda ikinci dəfə ali hakimiyyətə qayıdan ulu öndərimiz ötən əsrin 70-ci illərindən başlayaraq xalq yaradıcılığının himayə olunması siyasətini daha geniş miqyasda davam etdirmişdir. Dahi şəxsiyyət bu sahədə görülən işləri ümummilli ideologiyada – azərbaycançılıqda birləşdirmiş, azərbaycançılığı və milli dövlətçiliyi ən yüksək milli dəyər kimi qiymətləndirərək demişdir: ***“Azərbaycançılıq – öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli dəyərlərini və dövlətçiliyini qoruyub saxlamaq deməkdir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də milli ruhu qorumağın, inkişaf etdirməyin və gələcək nəsillərə çatdırmağın əsas şərtini milli dövlətçilikdə görərək qeyd etmişdir ki: ***“Güclü iqtisadiyyat yaratmaq olar, bölgədə güclü mövqelərə malik olmaq olar, ancaq milli dəyərlər olmadan heç bir ölkə, heç bir xalq inkişaf edə bilməz. Bizim üstünlüyümüz ondan ibarətdir ki, gənc və güclü dövlətimiz möhkəm təməl üzərində qurulub. Çoxəsrlik tarix, mədəniyyət üzərində qurulub”.***

Qeyd olunmuşdur ki, bu gün ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da milli dəyərlərimizə, tarixi-mədəni irsimizə qayğı ilə yanaşılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında 2009-cu ildə Sərəncamı olmuş, 2012-ci il Naxçıvan Muxtar Respublikasında “Milli dəyərlər ili” elan edilmişdi. Bütün bunlar öz nəticəsini göstərmiş, bu sahədə sistemli tədbirlər həyata keçirilmişdir. Tarixi abidələrə yeni həyat verilmiş, xalq yaradıcılığı günləri təşkil olunmuş, milli kökə bağlılıq nümayiş etdirilmişdir. Ağacişləmə, papaqçılıq, dülgərlik, toxuculuq, xalçaçılıq, dəmirçilik, misgərlik, dulusçuluq, taxta üzərində oyma kimi qədim sənət sahələri qorunub saxlanılmışdır. Son illər el sənətkarları üçün emalatxanalar istifadəyə verilmiş, əl işlərindən ibarət sərgilər təşkil olunmuşdur. Aparılan tikinti-quruculuq işlərində milli ornamentlərin tətbiqinə üstünlük verilir. Bədii yaradıcılıq prosesində də milli dəyərlərimizin öyrənilməsi və təbliğinə diqqət artırılıb. “Naxçıvan mətbəxi”, “Naxçıvan tikmələri” və “Tarixi qaynaqlarda Nuh peyğəmbər” kitabları, üççildlik “Naxçıvan folkloru” antologiyası nəşr etdirilmişdir. Yallılar nota köçürülmüş və onun əsasında “Naxçıvan-Şərur el yallıları” kitabı çap olunmuşdur. Bununla yanaşı, yallılardan ibarət kompakt disk də buraxılmışdır.

Ali Məclisin Sədri demişdir ki, milli dəyərlərə bağlılıq tarixi-mədəni irsin qorunmasından başlayır. Biz bu gün tarixi abidələri tədqiq və bərpa etməklə, milli dəyərləri yaşatmaqla, bir tərəfdən keçmişimizə və gələcəyimizə ehtiramımızı bildiririk, digər tərəfdən isə xalqımızın əsrlər boyu formalaşmış sənətkarlıq mədəniyyətini, həyat tərzini, məişətini, bir sözlə, milli dəyərlər sistemini yaşadırıq. Ulu öndərimiz tövsiyə edirdi ki, ***gələcək uğurlara təminat xalqın milli dəyərlərini gənc nəslə aşılamaqdan başlayır.*** Bu mənada gənclərlə aparılan işlərdə milli dəyərlərə üstünlük verməli, azərbaycançılıq ideyasını gücləndirməli, istedadlı gəncləri xalq sənəti sahələrinə cəlb etməliyik. Milli dəyəri olmayan xalqın keçmişi olmadığı kimi, gələcəyi də yoxdur. Bu səbəbdən də milli dəyərlər, xalq yaradıcılığı, əsrlər boyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələri ətraflı öyrənilməli, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların tətbiq və təbliğ olunması istiqamətində işlər davam etdirilməlidir.

“Milli köklərə, milli dəyərlərə qayıdış hər kəsi düşündürməlidir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, biz bu gün milli dəyərlərimizi, adət-ənənələrimizi qoruyub-yaşatmaqla, xalq yaradıcılığı sahələrinə yeni həyat verməklə, əslində, milli kimliyimizi qoruyuruq. Ona görə də hər bir rayonun, kəndin milli dəyərlər sistemi ardıcıl öyrənilməli, qədim sənətkarlıq sahələri üzə çıxarılmalı, unudulmaqda olan dəyərlər bərpa olunmalı, el sənətkarlarının fəaliyyətinə dəstək verilməlidir. Heç şübhəsiz ki, bu gün sahib olduğumuz ən ali dəyərimiz milli dövlətçiliyimizdir. Xalqımızın sabitlik və rifah içində yaşamasıdır. Ona görə də milli-mədəni irsimizə qayğı göstərməklə yanaşı, dövlət müstəqilliyimizin də qədrini bilməli, onu qorumalı, ölkəmizin inkişafı və tərəqqisi yolunda çalışmalıyıq.

Ali Məclisin Sədri bu yolda hər kəsə uğurlar arzulamış, xalq yaradıcılığı sərgisinin təşkilində, milli dəyərlərimizin öyrənilməsi, yaşadılması və təbliğində əməyi olanlara təşəkkür etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 3 noyabr tarixli Sərəncamına əsasən, xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyətlərinə görə 8 nəfər “Rəşadətli əməyə görə” nişanı, “Tarixi mənbələrdə Nuh peyğəmbər” və “Naxçıvan-Şərur el yallıları” kitablarının müəllifləri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin pul mükafatı ilə təltif edilmişlər.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının “Rəşadətli əməyə görə” nişanını və pul mükafatını təqdim etmişdir.

Təltif olunanlardan Səriyyə Hüseynova və Fəxrəddin Səfərli əməklərinə verilən qiymətə görə minnətdarlıq etmişlər.

*Ardı 2-ci səhifədə*





Yallılar xalqımızın bir çox milli mədəniyyət elementlərini və etnoqrafik xüsusiyyətlərini özündə cəmləşdirir. Qədim rəqs mədəniyyəti ilə yanaşı, özündə milli geyimlərimizi və bənzərsiz xalq musiqisini yaşadan yallılar bu gün də qorunur, gənc nəsillərə öyrədilir. İnsanları qələbəyə səsləyən, onlarda vətənə, torpağa məhəbbət hissi oyadan yallı havaları birlik və bərabərliyimizin rəmzinə çevrilmişdir.

Tədbirdə Şərur Xalq Yallı Ansamblının, şəhər və rayon mədəniyyət evlərinin yallı qruplarının üzvləri birlikdə “Köçəri” yallısını ifa etmişlər.

Ali Məclisin Sədri yallı kollektivləri ilə xatirə şəkli çəkdirmiş, xalq yaradıcılığı sərgisi ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, sərgiyə 37 el sənətkarı tərəfindən oyma, xəttatlıq, dulusçuluq, papaqçılıq, xalçaçılıq, misgərlik, toxuma, ağac üzərində yandırma, bədii tikmə və digər xalq sənətkarlığı sahələri üzrə 600-ə yaxın əl işi, rəsm əsərləri, məktəbdənkənar tərbiyə müəssisələrinin müəllim və şagirdləri tərəfindən hazırlanan 120 bədii tikmə və toxuma nümunələri, sağlamlıq imkanları məhdud şəxslərin və qadınların əl işləri çıxarılmış, muxtar respublikanın rayonlarında fəaliyyət göstərən folklor kollektivlərinin çıxışları üçün şərait yaradılmışdır.

Hər bir xalqın tarixi onun yaratdığı sənətkarlıq nümunələrində yaşayır. Bəşəriyyətin ilkin yaranış dövründən başlayaraq bu günə kimi xalq sənətkarlığı müxtəlif inkişaf mərhələləri keçmişdir. Sadə əl əməyinə əsaslanan əşyalar, məişət avadanlıqları sonralar həmin dövrlərdən xəbər verən maddi-mədəniyyət nümunələrinə çevrilmişlər. Bu gün Naxçıvanda milli dəyərlərimizin tərkib hissəsi olan xalq sənətkarlığı sahələrinin bərpa olunması da bu torpaqda tarixən formalaşmış zəngin tarixi-mədəni irsin yaşadılması kimi mühüm məqsədə xidmət edir.

Naxçıvanda oyma sənətinin qədim tarixi vardır. Əcdadlarımız bu sənətin ilkin nümunələrini Gəmiqayada daş üzərində yaratmış, daş kitabələrdə əks olunan müxtəlif təsvirlər bu günümüzə qədər gəlib çatmışdır. Sonradan daş üzərində oyma ilə yanaşı, ağac üzərində oyma sənəti də inkişaf etdirilmişdir. Bu gün naxçıvanlı sənətkarlar ağac üzərində oyma sənətini yaşadır, xalqımızın min illər ərzində formalaşan bədii-estetik zövqü öz əksini bu əsərlərdə tapır. Sərgidə el sənətkarlarının tarixi abidələrin, nağıl personajlarının, “Dədə Qorqud” dastanındakı obrazların və Naxçıvan memarlıq məktəbinin elementlərinin əks olunduğu müxtəlif əl işləri nümayiş olunmuşdur.

Milli geyimlər hər bir xalqın milli xüsusiyyətləri, əmək fəaliyyəti, təsərrüfat məşğuliyyəti və bədii-estetik zövqü əsasında formalaşır. Naxçıvanda toxuculuğun, boyaqçılığın və ipəkçiliyin inkişafı milli geyim mədəniyyətinin formalaşmasına da şərait yaratmışdır. Təbii coğrafi şəraitə uyğun olaraq inkişaf etdirilən geyimlər əsrlər keçdikcə özünəməxsus milli cəhətlərlə daha da zənginləşmişdir. Tarixən Naxçıvanda hazırlanan ləbbadə, çaxçur, çuxa, arxalıq, küləcə, çəpkən kimi milli geyimlər bu gün də maddi və mənəvi mədəniyyətimizin qaynaqları kimi qorunub yaşadılır. Milli geyimlərin əsas cəhətlərindən biri də baş örtükləridir. Çalma, araqçın, rübənd, şal və kəlağayı kimi baş örtükləri Azərbaycan qadınının ismət və sədaqət nişanəsi kimi yüksək mənəvi dəyərə malikdir.

Tədbirdə milli geyimli oğlan və qızlar “Dədə Qorqud” dastanı əsasında səhnələşdirdikləri kompozisiyanı təqdim etmişlər. Kompozisiyada Dədə Qorqud və digər dastan qəhrəmanlarının obrazları canlandırılmış, Dədəmiz Qorqudun hikmətli sözləri səsləndirilmişdir.

Muxtar respublikada milli dəyərlərimizin elmi şəkildə öyrənilməsi, qədim sənətkarlıq sahələrinin və folklor nümunələrinin üzə çıxarılması diqqət mərkəzində saxlanılır. Son illər Naxçıvan mətbəxi, folkloru, mədəniyyəti, milli musiqi sənəti, tarixi abidələri haqqında ətraflı tədqiqat işləri aparılmış, yeni kitablar yazılmışdır. Sərgidə milli dəyərlərimizə və xalq sənətkarlığı sahələrinə aid olan kitablar nümayiş olunmuşdur.

Ali Məclisin Sədri xalq yaradıcılığının bütün sahələri üzrə elmi-tədqiqat işlərinin aparılmasının vacibliyini vurğulamış, folklor nümunələrinin, xüsusilə xalq yaddaşından süzülüb gələn qədim əfsanə, mif və rəvayətlərin elmi şəkildə öyrənilməsi barədə tapşırıqlar vermişdir.

Sonra tədbir iştirakçıları sərgidə nümayiş olunan xalçalara baxmışlar. Xalq tətbiqi sənətinin əsas qolu olan xalçaçılıq Naxçıvan mədəniyyət tarixində özunəməxsus yer tutur. Müxtəlif naxış elementləri və təsvirlərlə, milli ornamentlərlə bəzədilən Naxçıvan xalçaları öz texniki xüsusiyyətlərinə, toxunma üslubuna, kompozisiya quruluşuna, ornament zənginliyinə və rəng koloritinə görə bir-birindən fərqlənir, əcdadlarımızın qədim məişət mədəniyyəti və həyat tərzi haqqında ətraflı məlumat verir. Bu gün də Naxçıvanda xalçaçılıq sənəti yaşadılır. Muxtar respublikada Naxçıvan Dövlət Xalça Muzeyi fəaliyyət göstərir. Bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Naxçıvanda xalça toxuma emalatxanaları yaradılmış, peşə məktəblərində xalçaçılıq kursu açılmış, “Naxçıvan xalçaçıları” kitabı çap olunmuşdur.

“Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi üçün ayrılmış guşədə 20-yə yaxın milli yemək, şirniyyat və şərbətlər sərgi iştirakçılarına təqdim olunurdu.

Naxçıvan mətbəxinin qədim tarixi vardır. Muxtar respublika ərazisində müxtəlif iqlim zonalarının olması flora və faunanı xeyli zənginləşdirmişdir. Bu isə zəngin mətbəx yaradılması üçün əsas amildir. Naxçıvanda formalaşan süfrə mədəniyyəti, xüsusilə milli yemək nümunələrinin fəsillərə uyğun hazırlanması, təbii qidalanmaya üstünlük verilməsi əcdadlarımızın ətraf mühitlə tam harmoniyada yaşaması və sağlam həyat tərzi haqqında məlumat verir. Hazırda milli yeməklər hazırlanarkən qədim üsullarla yanaşı, müasir kulinariya tələbləri də nəzərə alınır, yerli məhsullardan geniş istifadə olunur, milli mətbəximiz daha da zənginləşdirilir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin təqdim etdiyi guşədə məhkumların hazırladıqları ağac üzərində oyma, toxuculuq və misgərlik nümunələri sərgilənmişdir.





Dulusçuların hazırladıqları müxtəlif saxsı qablar, nümayiş etdirilən qədim dulusçuluq əşyaları və alətləri böyük maraq doğurmuşdur. Bildirilmişdir ki, aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılan saxsı qablar Naxçıvanda dulusçuluğun qədim istehsal sahələrindən biri olduğunu təsdiq edir. Naxçıvan xanlığı dövründə saxsı qablar istehsalı geniş vüsət almış, Naxçıvan və Ordubad şəhərlərində 20-dən artıq dulusçu fəaliyyət göstərmiş, onların hazırladıqları səhəng, cürdək, bardaq, kuzə, küp, sürahi, qurqur, dolça, kasa və digər dulusçuluq əşyaları məişətdə geniş istifadə olunmuşdur.

Xalqımızın məişətində papaq baş geyimi olmaqla yanaşı, həm də mentalitet və ləyaqət rəmzi hesab olunmuşdur. Yüz illər boyu xalqın məişət mədəniyyəti ilə sıx əlaqədə inkişaf edən papaqçılıq sənəti günümüzdə də yaşadılır. Sərgidə nümayiş etdirilən qədim və milli papaq nümunələri maraqla qarşılanmışdır.

Naxçıvandakı tarixi abidələrin üzərində rast gəlinən kufi və nəstəliq xətləri burada xəttatlıq sənətinin inkişafından xəbər verir. Əcəmi memarlıq məktəbinin əsas səciyyəvi cəhətlərindən biri də abidələrin üzərində xəttatlıq elementlərinin əks olunmasıdır. Naxçıvan ərazisindəki daş kitabələrdə və əlyazmalarda da xəttatlıq sənətinin izlərinə rast gəlinir. Bu gün də sənətkarlar xəttatlıq sənətini yaşadır, onu forma və məzmunca zənginləşdirirlər.

Sərgidə muxtar respublikanın rayonlarından gələn folklor qrupları maraqlı çıxışlar etmişlər. Muğam üçlüklərinin, sazçalan qızların ifası, Şərur Xalq Yallı Ansamblının və rayon mədəniyyət evlərinin yallı qruplarının təqdim etdikləri “İkiayağı”, “Göyçəməni”, “Xələfi”, “Qaleyi”, “Tənzərə”, “Tello” və “Sarı gəlin” yallıları, milli musiqi alətlərində xalq mahnılarının səslənməsi xoş ovqat yaratmış, Şərur və Babək rayonlarından gələn pəhləvanların çıxışları maraqla qarşılanmışdır.

Xalqımızın zəngin və maraqlı folklor nümunələrindən biri də xalq oyunlarıdır. Tarixi çox qədimlərə gedən xalq oyunları insanlara yaxşıları qorumaq, onlara dayaq durmaq kimi yüksək mənəvi keyfiyyətlər aşılayır. “Haxışta”, “Fincan-fincan”, “Hodu-hodu” və digər xalq oyunları tədbir iştirakçıları tərəfindən maraqla izlənilmişdir. “Şərur toyu”, “Naxçıvan toyu” kompozisiyaları isə bu qədim el adətinin bütün incəliklərini təcəssüm etdirmişdir.

Tədbirdə qədim milli musiqi alətlərimizin sərgisi təşkil edilmiş, misdən hazırlanan əl işləri, özündə incəsənətin və memarlığın vəhdətini yaşadan şüşə üzərində vitrajlar nümayiş olunmuşdur.

Bu gün muxtar respublikada dekorativ-tətbiqi sənət nümunələri hazırlanır, bu sahə ilə məşğul olan sənətkarların fəaliyyətinə dəstək verilir. Naxçıvanda bu sənətin ən qədim növü olan bədii tikmə nümunələri işlənmə texnikası və bəzək üsulları ilə seçilir. Qədimdən qızların cehizinin bir qismini onların özü tərəfindən hazırlanmış süfrələr, güləbətinli araqçın, piləkli və bu kimi tikmələr təşkil edirdi. Tikmələrdən milli geyimlərimizin bəzədilməsində də geniş istifadə olunmuşdur.

Sərgidə dekorativ-tətbiqi sənət nümunələri, bədii tikmələr, dəri üzərində qabartma üsulu ilə hazırlanmış tətbiqi sənət əsərləri, muncuqlu əl işləri nümayiş olunmuşdur.

Bədii tikmə ilə məşğul olan Aidə İbrahimova sənətkarlar adından minnətdarlıq edərək demişdir: Vaxtilə biz sənətkarların hazırladıqları əsərlər evlərdə qalırdı, üzə çıxarmaq mümkün deyildi. Lakin bu gün Naxçıvanda unudulmaqda olan sənət sahələri üzə çıxarılır, el sənətkarlarının fəaliyyətinə dəstək verilir, onların əl işlərindən ibarət sərgilər təşkil olunur, xalq yaradıcılığı sahələri ilə məşğul olan insanlara qayğı göstərilir. Bu isə bizi daha da səylə çalışmağa, qədim və unudulmaqda olan sənət sahələrinə yeni həyat verməyə ruhlandırır.

Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası vacib məsələdir. Muxtar respublikada bu istiqamətdə kompleks tədbirlər görülür. İstər sağlamlıq imkanları məhdud gənclərin təhsilə cəlbi, istərsə də bu kateqoriyadan olan insanların istedad və bacarığının üzə çıxarılması sahəsində görülən işlər ardıcıl xarakter almışdır.

*Ardı 3-cü səhifədə*

Sərgidə sağlamlıq imkanları məhdud şəxslərin əl işləri, müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri nümayiş olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi üçün ayrılan guşədə isə muxtar respublikanın şəhər, rayon və kəndlərindən olan 123 istedadlı qadının 700-dən artıq əl işi təqdim olunmuşdur. Tikmə, toxuma və aplikasiyalar, taxta üzərində yandırma, xalçalar, toxuculuq nümunələri və bir-birindən maraqlı digər dekorativ-tətbiqi sənət nümunələri maraqla qarşılanmışdır.

Muxtar respublikada gənc nəslin milli dəyərlərə sadiqlik ruhunda böyüdülməsi diqqət mərkəzindədir. Bu işdə məktəbdənkənar tərbiyə müəssisələrinin mühüm rolu vardır. Bu təhsil ocaqlarında təşkil olunan dərnəklərdə şagirdlərə qədim sənətkarlıq sahələri öyrədilir, xüsusilə qızlarda toxuculuq, xalçaçılıq sahələrinə maraq yaradılır. Sərgi iştirakçıları muxtar respublikanın məktəbdənkənar tərbiyə müəssisələrinin və Naxçıvan Qızlar Liseyinin şagirdlərinin əl işlərinə də baxmışlar.

Naxçıvanda tarixən formalaşmış qədim çalğı alətlərinin bu gün geniş təbliğinə və gənc nəslə öyrədilməsinə ciddi ehtiyac vardır. Cəng, ud, təbil, tənbur, qanun, qopuz, rübab, tulum, ney, zurna, balaban kimi çalğı alətlərimizə yeni həyat verilməsi mühüm əhəmiyyət daşıyır. Tədbirdə Naxçıvan Musiqi Kollecinin qədim musiqi alətləri ansamblı rəngarəng musiqi nömrələri ifa etmişdir.

Ali Məclisin Sədri muxtar respublikanın uşaq musiqi məktəblərində və Naxçıvan Musiqi Kollecində tulum, tənbur kimi qədim çalğı alətlərinin tədris olunmasını tapşırmışdır.

Sonra Ali Məclisin Sədri naxçıvanlı rəssamların xalq yaradıcılığı nümunələrini yaşadan rəsm əsərlərinə baxmışdır.

Kətan üzərində yağlı və sulu boya ilə çəkilmiş "Xəzinə küpü", "Xanəndə", "Dədə Qorqud dastanı", "Xalçalı kompozisiya", "Sazçalan qız", "Qədim əşya ilə natürmort" rəsm əsərləri, dəri üzərində yandırma üsulu ilə işlənmiş "Kamançanın sehrli səsi", "Dədə Qorqud" əsərləri işlənmə texnikası və orijinal görünüşü ilə naxçıvanlı rəssamların yüksək bədii-estetik zövqünü təcəssüm etdirirdi.

Ali Məclisin Sədri xalq yaradıcılığı sərgisinin əhəmiyyətini qeyd edərək demişdir: Tarixin qədimliyini sübut edən əsas amillər sırasında xalq yaradıcılığı və folkloru mühüm yer tutur. Çünki hər bir xalqın min illər ərzində formalaşan milli-mədəni irsi onun sənətkarlıq sahələrində yaşayır. Əgər Gəmiqaya təsvirləri xalq sənətkarlığının ilkin nümunələrinin izlərini yaşadırsa, yallılarımız isə mədəniyyətimizin qədim tarixindən xəbər verir. Bugünkü sərgi bir daha göstərdi ki, xalqımızın qədim və qürur duyulası tarixi vardır. Qədim sənət sahələrinin bərpası, folklorumuzun, milli mətbəximizin, milli musiqimizin, bir sözlə, milli dəyərlərimizin yaşadılması həm də turizmin inkişafına xidmət edir. Ona görə də aid təşkilatlar bu məsələni diqqətdə saxlamalı, xalq sənətkarlığı sahələrinə bundan sonra da dəstək verilməli, bu işdə hər kəs yaxından iştirak etməlidir. Muxtar respublikanın rayonlarında da xalq yaradıcılığı sərgiləri təşkil olunmalı, istedadı və qabiliyyəti olan insanlar üzə çıxarılmalı, yeni sənətkarlar nəsli yetişdirilməli, keçmişimiz gələcək nəsillərə çatdırılmalıdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Müstəqil Azərbaycanın qurucusu

*Bu mövzuda Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında keçirilən tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açmışdır.*

YAP Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, Dəmirçi kənd tam orta məktəbi ilk partiya təşkilatının sədri Həbib Ələkbərov, rayon Statistika İdarəsi ilk partiya təşkilatının sədri Ramiz Rəsulov və Kürçülü kənd tam orta məktəbi ilk partiya təşkilatının sədri Zülfiyyə Məmmədova çıxış etmişlər.

Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldiyi vaxt respublikamız iqtisadi durğunluq, siyasi və mənəvi tənəzzül vəziyyətində idi. Azərbaycan milli gəlirin artım sürətinə görə keçmiş SSRİ-dəki bəzi respublikalardan xeyli geri qalırdı. Həmin dövrdə xalqımızın böyük oğlu Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada yaranmış sosial-iqtisadi durum hərtərəfli təhlil olunmuş, geriliyin səbəbləri aşkara çıxarılmış və qısa müddətdə onun aradan qaldırılması yolları müəyyənləşdirilmişdir. İqtisadiyyatın hərtərəfli inkişafı və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün müvafiq proqramlar işlənib hazırlanmış və bütün sahələri əhatə edən yeni sosial-iqtisadi inkişaf mərhələsi başlanmışdır.

Dahi rəhbər yaxşı bilirdi ki, müstəqil yaşamaq üçün, birinci növbədə, ölkə iqtisadi asılılıqdan qurtulmalı, hər cəhətdən özünü təmin etmək imkanı olmalıdır. Buna görə də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və digər mühüm sahələrdə qısa müddətdə misilsiz işlər görülmüşdür.

Vurğulanmışdır ki, respublikamızda hərəkətə gətirilən potensial Şərur rayonunun da hərtərəfli inkişafına böyük təkan vermişdir. Geniş üzüm plantasiyaları və meyvə bağları salınmış, istehsal olunan məhsulun ilkin emalı üçün 6 şərab zavodu, o vaxtadək keçmiş SSRİ-də analoqu olmayan konserv zavodu, yağ-pendir zavodu tikilmiş, dəmir-beton konstruksiyaları zavodu, qumçınqıl emalı müəssisəsi, asfalt zavodu işə salınmışdır. Ümumilikdə, on il ərzində rayonda irili-xırdalı iyirmidən artıq istehsal müəssisəsi yaradılmışdır. Ötən əsrin 70-ci illərində Arpaçay Su Anbarının, bu anbardan qidalanan sağ və sol sahil kanallarının istismara verilməsi ilə 40 min hektardan artıq torpaq sahəsinə yeni həyat verilmişdir. Respublika rəhbəri tərəfindən aqrar sahənin inkişafına göstərilən diqqət və qayğının nəticəsi idi ki, rayonda hər il 100 min tondan çox üzüm, xeyli taxıl, tütün, meyvə, tərəvəz, heyvandarlıq məhsulları istehsal



olunurdu.

Bildirilmişdir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik qazanmış ölkəmizi vətəndaş müharibəsi təhlükəsi bürüyəndə, milli dövlətçiliyimiz məhv olmaq, respublikamız parçalanmaq təhlükəsi ilə üz-üzə qalanda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycanı bütün bəlalardan qurtarmışdır. Ulu öndərimiz parçalanmaq təhlükəsi ilə üzləşən, ictimai-siyasi, hərbi və mənəvi böhran içində çabalayan ölkəni yenidən qurmuş, onu məhv olmaqdan, dağılmaqdan xilas etmişdir.

Qeyd olunmuşdur ki, günü-gündən tərəqqi edən Azərbaycanımız, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişaf sosial-iqtisadi və mədəni həyatın bütün sahələrini əhatə edir. Bu gün böyük qürur hissi keçiririk ki, ulu öndərin Naxçıvanın dünəni, bu günü və daha xoşbəxt gələcəyi naminə müəyyənləşdirdiyi strategiya uğurla həyata keçirilir. Son 20 ildə aparılan ardıcıl və uğurlu siyasət nəticəsində muxtar respublikanın sosial-iqtisadi sahədə qazandığı uğurları saymaqla bitməz. Artıq xarici bazarlardan asılılıq minimuma endirilmişdir. İşsizliyin aradan qaldırılması, məşğulluğun təmin olunması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində hər il minlərlə yeni iş yerləri yaradılır. Yaşayış məntəqələrinə fasiləsiz elektrik enerjisi və qaz verilir. Yol-nəqliyyat kompleksi yenilənir, ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbat yerli istehsal hesabına təmin edilir, ümumtəhsil məktəblərinin şəbəkəsi yeni istifadəyə verilən obyektlər hesabına ildən-ilə genişlənir. Sevindirici nəticələrdən biri də odur ki, əhalinin artımında və məskunlaşmasında hər il yüksək rəqəmlər qeydə alınır.

Tədbirdə bir daha nəzərə çatdırılmışdır ki, bütün bölgələri hərtərəfli inkişafda olan bugünkü qüdrətli Azərbaycanı bir dövlət kimi ulu öndər Heydər Əliyev qurmuş və onun uzun müddətə hesablanmış gələcək inkişaf perspektivlərini müəyyənləşdirmişdir. Təqdirəlayiq haldır ki, əsası ümummilli liderimiz tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi və siyasi strategiya onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artmaqdadır. Azərbaycan bütün dünyada demokratik, dünyəvi və hüquqi dövlət kimi tanınır. Ümummilli lider Heydər Əliyevin şah əsəri olan Azərbaycan dövlətində mövcud olan siyasi sabitlik, yüksək inkişaf xarici əlaqələrimizin də genişlənməsinə müsbət təsir göstərir. Ulu öndərin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", – deyərək yüksək dəyərləndirdiyi möhtərəm Prezidentimiz bu ümidləri doğruldur, doğma Azərbaycanımızı Heydər Əliyev ideyalarının nurunda daha xoş, daha işıqlı gələcəyə aparır.

**Elman MƏMMƏDOV**

# Əhaliyə göstərilən tibbi xidmətin əhatə dairəsi genişləndirilir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi oktyabr ayında öz işini təsdiq olunmuş iş və tədbirlər planına uyğun quraraq əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir. Səhiyyə sisteminin yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması xidmətin səviyyəsini xeyli yaxşılaşdırmış, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması vətəndaşların sağlamlığının qorunması işində mühüm rol oynamışdır.***

Ötən ay Ordubad rayonunun Tivi kəndində həkim ambulatoriyasının və Şərur rayonunun Yuxarı Yaycı kəndində feldşer-mama məntəqəsinin açılışı olmuşdur. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yaratdığı həkim briqadası Tivi kənd həkim ambulatoriyasında 300 nəfər kənd sakinini profilaktik tibbi müayinədən keçirmiş, səhiyyə maarifi işi aparmışdır. Onlardan 127 nəfəri məktəbin şagirdləridir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən idarə olunan yoluxucu xəstəliklərin immunoprofilaktikası məqsədilə peyvənd materialları, öz-özünü məhv edən şpris və işlənmiş materialları yığmaq üçün konteyner, Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan isə Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə dərman preparatları və bakterioloji laboratoriyaya ehtiyac olan miqdarda reaktivlər gətirilmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində şagirdlərin kütləvi müayinəsinə başlanılmış, 25 min 899 şagirddə dərin tibbi müayinə aparılmış, poliomielit xəstəliyinin profilaktikası məqsədilə 7 min 466 uşaq tur ilə əhatə olunmuşdur.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahi əməliyyatlarının təşkili davam etdirilmişdir. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin müdiri Rəşad Mahmudovun rəhbərlik etdiyi 10 nəfərlik heyət Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə 10 nəfərdə açıq ürək və 1 nəfərdə periferik damar əməliyyatı həyata keçirmiş, 55 nəfərdə müayinələr aparılmışdır.

Bakı şəhərində fəaliyyət göstərən Bioloji Təbabət Klinikasının həkimi, tibb elmləri doktoru, professor Fikriyyə İbrahimli və Almaniyanın Viadrina Universitetinin bioloji təbabət üzrə ekspert professoru Gerhard Raysın iştirakı ilə Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında "Modul A" tədris proqramının ikinci hissəsi üzrə 3 günlük seminar-kurs, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Həkimləri Təkmilləşdirmə İnstitutunun Psixiatriya və narkologiya kafedrası professorlarının iştirakı ilə Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserində psixiatr və Naxçıvan Dövlət Universitetinin tələbələrinin iştirakı ilə psixiatriyanın aktual problemləri mövzusunda 15 günlük səyyar təkmilləşmə kursu keçirilmişdir.

Həkim ambulatoriyalarının və Naxçıvan şəhər tibb müəssisələrinin laborantlarının iştirakı ilə Naxçıvan Tibb Kollecində laboratoriya işi üzrə bir aylıq təkmilləşmə kursu aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən oktyabr ayı ərzində Ordubad rayonunun kəndlərinin təhsil müəssisələrində işləyən 47 qadının süd vəzində profilaktik müayinə aparılmış, 3 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə dəvət edilmişdir.

Bəhs olunan dövrdə 80 nəfər orta tibb işçisi sertifikasiya test imtahanlarında iştirak etmiş, onlardan 75 nəfəri zəruri nəticəyə nail olmuşdur.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirmiş, Diaqnostika-Müalicə Mərkəzində Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin 28 nəfər işçisindən 12 litr qan götürülmüşdür. Aşura günü ilə əlaqədar məscidlərdə qanvermə aksiyası keçirilmiş, 625 nəfərdən 188 litr qan tədarük edilmişdir.

Yod çatışmazlığının profilaktikası məqsədilə məktəbyaşlı uşaqlar arasında endemik zobun yayılmasının qarşısını almaq üçün 6 min 761 uşaq və 1067 müəllim, texniki işçilər müayinədən keçirilmiş, 46 uşaq xəstəliyə şübhəli olduğu üçün Endokrinoloji Dispanserdə müayinələrə cəlb olunmuşlar.

Ahıl və əlillərə göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə oktyabr ayı ərzində muxtar respublika üzrə 27 nəfər Bakı şəhərindəki Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 42 nəfər Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Pansionatına, 11 nəfər isə müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*"Naxçıvan" Universitetində Pedaqoji və Xarici dillər fakültələrinin əyani şöbə üzrə IV kurs tələbələrinin 2015-2016-cı tədris ilinin birinci yarısında keçdikləri pedaqoji təcrübəyə həsr edilmiş yekun konfrans keçirilmişdir.*

# Pedaqoji təcrübənin yekun konfransı olub

Konfransı giriş sözü ilə ali təhsil ocağının tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açaraq bildirmişdir ki, ali təhsil müddətində qazanılan nəzəri bilikləri təcrübədə möhkəmləndirmək, peşə vərdişlərinə yiyələnmək baxımından pedaqoji təcrübənin əhəmiyyəti böyükdür. 2015-2016-cı tədris ilinin birinci yarısında universitetin 102 tələbəsi Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə, 8 nömrəli və 15 nömrəli tam orta məktəblərdə pedaqoji təcrübə keçmişlər. Pedaqoji təcrübə müddətində tələbələrin muxtar respublikanın tam orta məktəblərində pedaqoji prosesi əyani şəkildə öyrənmələri, bilik və peşə vərdişlərinə yiyələnmələri üçün hər cür şərait yaradılmışdı.

İbrahim Kazımbəyli həmçinin pedaqoji təcrübə zamanı dərslərin informasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçilməsinin, tələbələrin hazırladığı tərbiyəvi tədbirlərin təşkilinin əhəmiyyətindən də bəhs etmişdir.

Pedaqoji təcrübənin qrup rəhbərləri Arifə Zeynalova, Vaqif Hüseynov, Elnarə Seyidova, Rəcəb Cəfərli, Riyaziyyat-informatika kafedrasının müdiri Məftun Əliyev və metodist Elbrus Vəliyev çıxışlarında bildirmişlər ki, tələbələr təcrübə müddətində yeni metodlardan istifadə etmiş, dərslərinin əksəriyyətini informasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçmiş və VII-VIII siniflərdə keçilən dərslərdə kurikulum üsulunu müvəffəqiyyətlə tətbiq etmişlər.

Təcrübəçi tələbələr çıxış edərək təcrübə zamanı onlar üçün yaradılmış şəraitdən, göstərilən qayğıdan danışmışlar.

Sonda təcrübədə fərqlənən tələbələrə fəxri fərmanlar təqdim olunmuşdur.

**Nuray ƏSGƏROVA**

*Muxtar respublikamızda idmanın inkişafına göstərilən qayğı regionda uşaq, yeniyetmə və gənclərin bu sahəyə axınını gücləndirib. Demək olar ki, idmanın bütün növlərinin kütləvi hal aldığı Naxçıvanda futbol xüsusi maraq kəsb edir. Perspektivli futbolçunu üzə çıxarmaq üçün əsas amillərdən biri isə uşaqlar arasında yerli, regional və ölkə miqyaslı yarışlar təşkil etməkdir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi müntəzəm olaraq belə turnirlər keçirir. İstedadlı futbolçular futbol komandalarının heyətinə cəlb olunurlar.*

## Uşaq futboluna diqqət artırılır, gələcəyin peşəkar futbolçuları yetişdirilir



Bu gün muxtar respublikada uşaq futbolunun inkişafı istiqamətində müəyyən addımlar atılır. Ən əsası isə uşaq futbolunun kütləviliyi üçün futbol məktəblərinin fəaliyyəti bərpa edilir, yeni məktəblər açılır. Son illər Naxçıvanda "Real Madrid Fondu"nun uşaq məktəbi, Açıq Əyləncəli Futbol Məktəbi fəaliyyətə başlayıb və yüzlərlə uşaq bu məktəblərdə futbolun sirlərini öyrənir. Həmçinin "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun 10-12, 13-14 və 15 yaşlılardan ibarət qrupları da fəaliyyət göstərir.

Uşaq futbolunun inkişafı, ilk növbədə, məşqçi amilindən asılıdır. Məşqçi meydanda məşq prosesi keçməklə yanaşı, həm də metodist olmalıdır. Futbol həm də bir elmdir. Futbolçunun meydanı görmək bacarığı, ani və düzgün hesablanmış qərar qəbul etməsi də bir elmdir. Yəni futbolçularda istənilən səviyyəni yaratmaq məşqçinin işi ilə ölçülür. Məşqçilərin uşağın xarakterinə uyğun olaraq fərdi planda ona diqqət göstərməsi vacibdir.

Yaş fərqinə baxmayaraq, məşqçi ilə uşaqlar arasında ciddi dostluq telləri olmalı, o, uşaqlarda özünəinamı və dürüstlüyü tərbiyə edə bilməlidir. Uşaqlardan biri səhv etsə belə, o, bunu səmimi şəkildə etiraf etməli, uşaqların məşq prosesi ilə yanaşı, məşqdənkənar həyatlarını da diqqətdə saxlamalıdır. Məsələn, uşaq futbolunda hər məşqdən öncə məşqçi uşaqların necə qidalanmaları, təhsillərindəki irəliləyişlər, valideynləri ilə münasibətləri barədə geniş müzakirələr aparmalıdır.

Hazırda "Araz-Naxçıvan" futbol komandasının uşaq qruplarında məşqçi kimi Sakit Rzayev, Cavid Həsənov və Rəşad Heydərov fəaliyyət göstərirlər. Hər yaş qrupunda 20-dən çox uşaq futbolun sirlərini öyrənir. Onlar arasında fərqlənənlər isə əsas komandaya cəlb olunur, məşq proseslərini burada keçməklə daha çox təcrübə toplayırlar.

Məşqçilərlə söhbətimiz zamanı məlum oldu ki, müxtəlif yaş qruplarında oynayan uşaq və yeniyetmə futbolçular gələcəyin peşəkar futbolçuları olmaq iqtidarına malikdirlər. "Burada fəaliyyət göstərmək mənə çox xoşdur. Valideynlər gəlib uşaqlarının məşqini izləyirlər. Məşqdən sonra onlarla səmimi ünsiyyətimiz olur", – deyən məşqçi Sakit Rzayev, ilk olaraq, uşaqların bu sahəyə marağını yaradılan şəraitdə görür: "Futbolun inkişafı və uşaq futbolunun kütləvi hal alması üçün ilkin amil şəraitin olmasıdır. Hazırda "Araz-Naxçıvan" futbol komandasının əsas heyəti ilə yanaşı, 3 yaş qrupu da fəaliyyət göstərir. Biz əsas komandanı formalaşdırmaq üçün uşaq futboluna böyük önəm veririk. Gənclər və İdman Nazirliyi bu yöndə məqsədyönlü tədbirlər görür və uşaq futboluna böyük dəstək olur. Məşqlərimizi Naxçıvan Muxtar Respublika Stadionunda aparırıq və bizə yüzlərlə uşaq müraciət edir. Bu, sevindirici haldır".

## Güləşçilərimiz respublika turnirindən medallarla qayıdıblar

*Bakı İdman Sarayında Helsinki Olimpiya Oyunlarının gümüş mükafatçısı Rəşid Məmmədbəyovun xatirəsinə həsr olunmuş yeniyetmələr arasında respublika seçim turnirinin final mərhələsi başa çatıb.*

Azərbaycan Güləş Federasiyasının nümayəndəliklərindən seçilmiş 170 sərbəst və 160 yunan-Roma güləşçisinin mübarizə apardığı turnirdə Naxçıvan güləşçiləri də iştirak ediblər. Paytaxtda keçirilən yarışda Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 13 yetirməsi (6 sərbəst, 7 yunan-Roma güləşçisi) mübarizə aparıb.

Yeniyetmələrin yarışında (1999-2000-ci illər təvəllüdlü güləşçilərin) Naxçıvan güləşçiləri iki medal qazanmağa müvəffəq olublar. 46 kiloqram çəki dərəcəsində İlqar Məcidov gümüş, 69 kiloqram çəki dərəcəsində Rauf Qurbanov isə bürünc medal əldə ediblər. Hər iki idmançımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim olunub.

Son zamanlar güləşçilərimizin uğurlu çıxışı diqqətdən yayınmır. Məhz bu turnirdə də analoji hadisənin təkrarlanması muxtar respublikada milli idman növünə göstərilən diqqətin bariz nümunəsidir. Turnirin böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq bürünc medal qazanan Rauf Qurbanovla söhbətləşdik: "16 yaşım var və artıq 5 ildir ki, sərbəst güləşlə məşğul oluram. Bu müddət ərzində 2 dəfə muxtar respublika, 5 dəfə isə Naxçıvan şəhər birinciliyinin qalibi olmuşam. Bu növə marağımın olmasının əsas səbəbkarlarından biri məşqçi-müəllimim Kamaləddin İsmayılovdur. Rəşid Məmmədbəyovun xatirəsinə həsr olunmuş turnirə ciddi hazırlaşmışdım. Hədəfim çempion olmaq idi, lakin bürünc medal qazandım. Bu, güləş karyeramda böyük uğurlardan biridir. İndi çalışmalıyam ki, həmin yarışda buraxdığım səhvləri növbəti yarışlarda etməyim. Məqsədim ölkə birinciliyində də mükafat qazanıb millinin heyətinə düşmək və Naxçıvan güləş məktəbini orada layiqincə təmsil etməkdir".

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin oktyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1060 | 63,6 | 64,0 | 100,6 |
| 2. | Şahbuz rayonu | 382 | 22,9 | 23,0 | 100,4 |
| 3. | Culfa rayonu | 1247 | 74,8 | 75,0 | 100,3 |
| 4. | Kəngərli rayonu | 630 | 37,8 | 37,9 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 3300 | 198,0 | 198,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1745 | 104,7 | 104,7 | 100,0 |
| 7. | Babək rayonu | 1735 | 104,1 | 104,1 | 100,0 |
| 8. | Sədərək rayonu | 325 | 19,5 | 19,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 18087 | 1085,3 | 1084,8 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **28511** | **1710,7** | **1711,0** | **100,0** |

**Qeyd:** Oktyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 28 milyon 511 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 710 min 700 manat olmuş, cəmi 1 milyon 711 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Dövlət Bayrağı Günü münasibətilə bilik yarışı keçirilib



Naxçıvan Dövlət Universitetində 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin komandaları arasında 4 turdan ibarət bilik yarışı keçirilib. Yarışda adıçəkilən fakültənin 7 ixtisası üzrə təhsil alan I və II kurs tələbələrindən ibarət 7 komanda iştirak edib.

Xalqımızın böyük oğlu Heydər Əliyevin həyatı və fəaliyyətindən bəhs edən, Azərbaycan tarixi, coğrafiya, məntiq və digər sahələr üzrə 70 test sualından ibarət bilik yarışı maraqlı və yaddaqalan olub.

Gərgin mübarizə nəticəsində İngilis dili müəllimliyi ixtisasının komandası qalib gələrək I yerə çıxıb. Beynəlxalq münasibətlər və tərcüməçilik (ingilis dili) ixtisasının komandaları isə II və III yerləri bölüşüblər.

Qeyd edək ki, bilik yarışı növbəti günlərdə digər fakültələrdə də təşkil olunacaq və sonda qalib gələn komandalar finalda qarşılaşacaqlar. Qalib komandalar, eyni zamanda yarışın fəal iştirakçıları diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.

**Mina QASIMOVA**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Dövlət Universiteti aşağıdakı kafedralar üzrə müsabiqə elan edir*

**Dekan vəzifəsini tutmaq üçün**

*1. Fizika-riyaziyyat fakültəsi*

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

*1. İngilis dili və tərcümə*
*2. İngilis dili və metodika*
*3. Memarlıq*
*4. Ümumi təbabət və gigiyena*

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün**

*1. Botanika – müəllim – 1 yer (0,5 ştat); dosent – 1 yer (0,5 ştat)*
*2. Əczaçılıq və stomatologiya – müəllim – 2 yer (0,5 ştat); müəllim – 1 yer*
*3. Pedaqogika və psixologiya – müəllim – 1 yer (0,5 ştat); professor – 1 yer*
*4. Hüquq fənləri – müəllim – 2 yer (0,5 ştat)*
*5. Rabitə və informasiya texnologiyaları – müəllim – 1 yer; professor – 1 yer (0,5 ştat)*
*6. Azərbaycan dilçiliyi – müəllim – 1 yer (0,5 ştat); dosent – 1 yer (0,5 ştat)*
*7. Roman-german dilləri – müəllim – 1 yer (0,5 ştat); müəllim – 1 yer*
*8. Fənlərin tədrisi metodikası və texnologiyası – müəllim – 1 yer (0,5 ştat)*
*9. Memarlıq – baş müəllim – 2 yer*
*10. Fəlsəfə və sosial iş – dosent – 1 yer (0,5 ştat)*
*11. Şərq dilləri və ədəbiyyatı – müəllim – 1 yer (0,5 ştat)*
*12. Fortepiano – professor – 1 yer (0,5 ştat)*
*13. Musiqişünaslıq və metodika – müəllim – 1 yer*
*14. Beynəlxalq münasibətlər – dosent – 1 yer (0,5 ştat)*
*15. Arxiv işi və muzeyşünaslıq – müəllim – 1 yer*
*16. Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi – müəllim – 1 yer (0,5 ştat)*
*17. Ümumi təbabət və gigiyena – müəllim – 1 yer (0,5 ştat)*
*18. Kimya – baş müəllim – 1 yer*
*19. Xalq çalğı alətləri – baş müəllim – 1 yer (0,5 ştat)*
*20. Fizika və energetika – baş müəllim – 1 yer*
*21. İnformatika – dosent – 1 yer (0,5 ştat).*

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi***
***Telefon: (036) 545-23-66/545-10-01***

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

*2015-ci il üçün kotirovka elan edir*

*1.Payız-qış mövsümü üçün əşya əmlaklarının satın alınması.*

Kotirovka 15 noyabr 2015-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 17 noyabr 2015-ci il tarixdə saat $11^{00}$-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs:***
***Cabbarov Murad Rasim oğlu***
***Telefon/faks: 544-48-34***
***Ünvan: Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi***

***İtmişdir***

Babək rayonunun Xal-xal kəndində yaşamış Hüseynova Zeynəb Hüseyn qızının adına olan JN-169$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 838